# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 89** **Bakı şəhəri, 13 mart 2018-ci il**

**Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında**

"Təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2018-ci il 28 fevral tarixli 3724 nömrəli, "Dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2018-ci il 28 fevral tarixli 3725 nömrəli, "Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2018-ci il 1 mart tarixli 3731 nömrəli, "Sosial təminat müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2018-ci il 1 mart tarixli 3732 nömrəli, "Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2018-ci il 3 mart tarixli 3741 nömrəli, Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2018-ci il 3 mart tarixli 3743 nömrəli, "Mənzil-kommunal, nəqliyyat və rabitə sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2018-ci il 3 mart tarixli 3744 nömrəli, "Meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2018-ci il 3 mart tarixli 3745 nömrəli sərəncamlarının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının məbləği bu qərarın 1 və 2 nömrəli əlavələrinə uyğun olaraq müəyyən edilsin.

**2.** "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 mart tarixli 106 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 618; 2017, № 4, maddə 673; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 yanvar tarixli 14 nömrəli qərarı) ləğv edilsin (2-ci hissəsi istisna olmaqla).

**3.** Bu qərar 2018-ci il martın 1-dən qüvvəyə minir.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli qərarına 1 nömrəli əlavə*

## Dövlət büdcəsindən maliyyələşdirilən müəssisələrdə (Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), AMEA-nın Naxçıvan və Gəncə bölmələrinin tabeliyində olan elmi müəssisə və təşkilatlar istisna olmaqla) çalışan işçilərin əməyinin ödənilməsinin Vahid Tarif Cədvəli

| Əməyin ödənilməsi dərəcələri | Aylıq tarif (vəzifə) maaşı (manatla) |
|---|---|
| 1 | 143 |
| 2 | 146 |
| 3 | 149 |
| 4 | 152 |
| 5 | 155 |
| 6 | 161 |
| 7 | 167 |
| 8 | 174 |
| 9 | 182 |
| 10 | 190 |
| 11 | 198 |
| 12 | 206 |
| 13 | 216 |
| 14 | 231 |
| 15 | 251 |
| 16 | 294 |
| 17 | 396 |
| 18 | 535 |
| 19 | 825 |
| | |

***Ağa-Bala Hacıyev***
***Aparatın rəhbəri***

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli qərarına 2 nömrəli əlavə*

## Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), AMEA-nın Naxçıvan və Gəncə bölmələrinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin əməyinin ödənilməsinin Vahid Tarif Cədvəli

| Əməyin ödənilməsi dərəcələri | Aylıq tarif (vəzifə) maaşı (manatla) |
|---|---|
| | |
| 1 | 160 |
| 2 | 168 |
| 3 | 176 |
| 4 | 184 |
| 5 | 192 |
| 6 | 200 |
| 7 | 208 |
| 8 | 216 |
| 9 | 227 |
| 10 | 240 |
| 11 | 253 |
| 12 | 267 |
| 13 | 281 |
| 14 | 306 |
| 15 | 335 |
| 16 | 388 |
| 17 | 495 |
| 18 | 634 |
| 19 | 875 |

***Ağa-Bala Hacıyev***
***Aparatın rəhbəri***